LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması



İcra müddəti: 07.05.2018 - 07.09.2020

ŞT ölkələri:
Azerbaijan

Aİ-nin maliyyə yardımı: € 629 770

Ümumi büdcə: € 740 906

İcraçı təşkilat(lar):
"Regional Development" Public Union, LOCAL GOVERNANCE ASSISTANCE PUBLIC UNION, Azerbaijan, Research of Social Rights PU

Sosial media hesablarına keçidlər:
facebook.com/inkluzivtehsilAzerbaycan/, instagram.com/inkluzivtehsil/

Internet səhifəsi: www.inkluzivtehsil.az

Layihənin təsviri:

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Vətəndaş cəmiyyətinin iştirakı və inklüziv təhsilin tətbiqi vasitəsilə Azərbaycanda təhsil sisteminin müasirləşdirilməsi" proqramı çərçivəsində həyata keçirilir.

Layihənin ümumi məqsədi "Azərbaycanın seçilmiş regionlarında əhatəli təhsil sistemi üçün müəllimlərin tədris imkanlarının və idarəetmənin, habelə pedaqoji resursların və siyasətin təkmilləşdirilməsi"ndən ibarətdir. Layihə Bakı, Şəki, Ağcabədi, Quba, Şamaxı və Cəlilabad bölgələrində icra edilir.

Layihədən orta ümumtəhsil məktəblərində çalışan 1000-dən artıq ibtidai sinif müəllimi, 400 universitet müəllimi, eləcə də pedoqoji universitetlərdə təhsil alan 2000-dən artıq tələbə və 250 məktəb direktoru faydalanacaqdır.

Gözlənilən nəticələr:

- Müəllim hazırlığı kurikulumu, dərsliklər, kurslar və tədris materialları hazırlanıb və müasirləşdirilib;
- Təhsildə xüsusi ehtiyacları/əlilliyi olan uşaqlara dəstək vermək məqsədilə ibtidai təhsil müəllimlərinin və digər mütəxəssislərin bacarıq və bilikləri təkmilləşdirilib;
- İbtidai təhsil müəllimləri və digər köməkçi heyət üçün resurs mövcudluğu təmin edilib;
- Əhatəli təhsil sistemi üçün əlverişli mühit, qanunvericilik bazası və proqramlar təkmilləşdirilib.